BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2007

# ZABİTİN XİDMƏTİ FƏALİYYƏTİNİN PSİXOLOJİ ƏSASLARI

**E.İ.ŞƏFİYEVA**
*Bakı Dövlət Universiteti*

Zabiti xidməti fəaliyyətə hazırlayan zaman onlarda mənəvi-siyasi baxışların yetkinliyinə, fərdi-psixoloji keyfiyyətlərin inkişafına, özünə və tabeçiliyində olanlara qarşı tələbkarlığının, hərbi-təşkilatçılıq bacarığının, ümumi mədəniyyətin, dünyagörüşünün inkişafına, hərbi-texniki və psixoloji hazırlığa nail olmaq vacibdir. Heydər Əliyev sərhədçilərlə görüşü zamanı qeyd etmişdir: «Millətə, dövlətə sədaqət çox geniş məfhumdur. Bəziləri bunun əksini ancaq dövlətə, sadəcə birbaşa xəyanət kimi anlayırlar. Təbiidir ki, xəyanət ən təhlükəlidir. Ancaq eyni zamanda vətəninə, millətinə sədaqət hər bir şəxsin yüksək mənəviyyata malik olmasındadır. Əgər insan yüksək mənəviyyata, müstəqil ənənələrə, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, mentalitetinə sahib olmasa, hesab edirəm ki, onun vətəninə, xalqına sadiqliyi natamam olur. Ona görə də gərək bizim bütün Silahlı Qüvvələrdə, o cümlədən sərhəd dəstələrində bu məsələ ön planda olsun. İdeoloji iş hər yerdə olmalıdır. Təlim-tərbiyə hər yerdə olmalıdır. Ancaq Silahlı Qüvvələrdə, yəni orduda, sərhəd qoşunlarında bu, daha da çox olmalıdır. Çünki Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin və yaranmış bugünkü ictimai-siyasi sabitliyin təminatçısı Azərbaycanın Silahlı Qüvvələridir, Azərbaycanın hüquq-mühafizə orqanlarıdır, Azərbaycanın Sərhəd Qoşunlarıdır...» (3, 13-14).

Hərbi qurumlara rəhbərlik edən zabit onun hər bir üzvündə cəsarət, qətiyyət, mənəvi saflıq, ən çətin şəraitdə belə inadkarlıq, qələbəyə inam və s. kimi keyfiyyətlər tərbiyə etməlidir. Tabeliliyində olanların iradəsini və xarakterini möhkəmləndirmək, onlara prinsipiallıq aşılamaq hər bir zabitin borcudur. Bu ağır və məsuliyyətli fəaliyyəti uğurla həyata keçirmək üçün o, həm fiziki, həm də psixi cəhətdən sağlam və hazırlıqlı olmalıdır. «Sağlam bədəndə sağlam ruh» nümayiş etdirən zabitin fəaliyyəti uğurlu və xidməti qüsursuz keçir.

Bu baxımdan zabit hazırlığının müasir şəraitin tələb etdiyi səviyyədə aparılması başlıca sosial-psixoloji problemlərdən birinə çevrilmişdir. Zabit heyəti hazırlığında şəxsiyyətin özünəməxsus xüsusiyyətlərini nəzərə almaqla, onlarla uyğun psixoloji hazırlığın aparılması vacibdir (5).

Məlumdur ki, şəxsi heyətin idarə edilməsi, onun siyasi və əsgəri hazırlığı zabitdən ən yaxın və perspektivli işləri aydınlaşdırmağı, bölmədə vəziyyəti hərtərəfli qiymətləndirməyi, qərar qəbul etmə və onu həyata keçirmə yollarını seçməyi tələb edir. Qoşunları bacarıqla idarə etmə hər bir zabitin nizamnamə borcudur. Azərbaycan Respublikası

Silahlı Qüvvələrinin daxili xidmət nizamnaməsində qeyd olunur ki, zabit tabeçiliyində olanların təlim və təhsilinin keçirilməsinin həm rəhbəri, həm də təşkilatçısıdır. Ona görə də o, bölmələri idarə etmə metodlarını daim təkmilləşdirməli, öz təşkilatçılıq bacarığını inkişaf etdirməli, yenilikləri öyrənməli, yaxşı təcrübəyə malik olan və müasir tədrisin səmərəsini və tabeçilikdə olanların tərbiyəsini artıra biləcək şəxsləri daxil etməlidir(1).

Zabitin xidməti fəaliyyətinin psixoloji əsasını onun məqsəd və motivləri, emosional-iradi prosesləri, bunları həyata keçirmək üçün zəruri olan yol və vasitələri təşkil edir.

İnsanın bütün həyatı boyu formalaşan və inkişaf edən tələbatlarının ödənilməsinə, motiv və məqsədlərinə nail olmasına yönəldilmiş xüsusi fəallığı motivasiya komponentini təşkil edir. A.Maslou insan motivasiyası nəzəriyyəsini vermişdir. O, bütün insan tələbatlarının ardıcıl struktura malik olduğunu göstərmiş və fizioloji (havaya, suya, qidaya və s.) tələbatlardan sonra psixoloji tələbatların dörd (təhlükəsizlik, məhəbbət, hörmət və özünüaktuallaşdırma) səviyyəsini və əsas koqnitiv tələbatlar olan – bilmək və dərk etmək arzusunun, estetik tələbatların da vacib rolunu qeyd etmişdir (11, 60-79). Digər Amerika psixoloqu D.Makklelpand insan motivasiyasından danışarkən onun əsasını təşkil edən dörd sosial tələbatları səciyyələndirmişdir: uğur əldə etmə, affiliasiya, hakimiyyət və qaçma (uzaqlaşma). Müəllif orijinal eksperimentlər vasitəsi ilə bu və ya digər motivasiyanı real olaraq göstərmiş və gizli tələbatları araşdırılma yollarını təklif etmişdir (10, 45-51).

Deməli, gəncləri professional hərbçi kimi formalaşdırmaq və düzgün yönəltmək üçün onları bu fəaliyyətə təhrik edən davamlı motivlər olmalıdır. Hərbi təhsil müəssisələrinə gələn gənclərin professional hazırlıq səviyyəsini qaldırmaq üçün xüsusilə onların motivasiyasına diqqət yetirərək düzgün istiqamətə yönəltmək vacibdir. Hərbidə təsadüfi insanlar olmamalıdır. Hərbi-professional yönəlişi təmin etmək üçün ilk növbədə hərb sənətinə, təlimə marağı artırmaq və məqsədyönlü professional bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesinə nəzarət etmək lazımdır. Hərbi sahəyə gələn abituriyentlərin şəxsi motivasiyası ilə dövlətin və cəmiyyətin sifarişi, tələbləri üst-üstə düşdükdə bu fəaliyyət kifayət qədər səmərəli ola bilər. Həmçinin təhsilin, xidmətin müxtəlif mərhələlərində zabit tərkibinin hərbi-professional yönəlişini təmin edən təhrik motivləri tədqiq edilməlidir. Onların davranışında qarşılıqlı əlaqədə olan təhrikedici və tənzimləyici funksional tərəflər araşdırılmalıdır. Tənzimləyici tərəf müxtəlif şəraitlərdə davranışın mütəhərrikliyini və möhkəmliyini təmin edir. Davranışın tənzimlənməsi müxtəlif psixi hadisələr (duyğu, qavrayış, diqqət, təfəkkür, hafizə, nitq, qabiliyyətlər, temperament, xarakter, emosiyalar) vasitəsi ilə həyata keçir. Təhrikedici tərəf davranışın aktivliyini və istiqamətini təmin edir. Davranışın bu tərəfi bilavasitə motivasiya ilə bağlıdır.

N.İ.Şevandrinin (15, 152-153) fikrincə motivasiya anlayışı iki mənada işlənir:

1) motivasiya – amillər sistemi olub orqanizmi aktivləşdirir və insan davranışının istiqamətini müəyyən edir. Buraya tələbatlar, motivlər, məqsədlər, maraqlar və yönəlişlər daxildir;

2) motivasiya – müəyyən səviyyədə davranış aktivliyini təmin edən prosesin səciyyəsidir, yəni motivləşmədir.

Zabit şəxsiyyətinin motivasiya кomponentini araşdırmaq üçün onun əsas amillər sistemini bilməк lazımdır. İlк növbədə tələbatlar onların nəyə isə ehtiyacını göstərən haldır və orqanizmin real ehtiyacına uyğun olaraq onu axtarışa yönəldir. Döyüş – təlim fəaliyyəti zamanı zabitin tələbatlarının əsas xüsusiyyətləri кimi onların: a) müntəzəm əmələ gəlməsi; b) gücü; ç) tələbatları ödəmə yolları; c) onların əşyavilәşməsi, yəni hansı cismlərlə ödənilməsi əsas yer tutur.

A.N.Leontyevin fiкrincə, (9, 102) motiv – insanı fəaliyyətə təhriк edir və tələbatı ödəməк üçün vasitə rolu oynayan predmetdir. Eyni bir tələbatın davranış motivləri müxtəlif ola bilər. Tələbatlar orqanizmi ancaq aкtivləşdirdiyi halda, motivlər – tələbatları əşyavilәşdirərəк aкtivliyi istiqamətləndirir və təşкil edir.

Zabitin yaradıcı xaraкter daşıyan aкtivliyinin formalaşması sosial yönümlüdür. Onun fəaliyyəti bütövlüкdə dövlətçiliyin xeyrinədir və bu onun xidməti borcudur. Zabit hazırlığı prosesində aparılan təlimlər, mənəvi-psixoloji və pedaqoji işlər onların motiv və məqsədlərini düz istiqamətləndirərəк sabit motivasiya sahəsinin yaradılmasına qulluq etməlidir. Ancaq belə istiqamətlənmiş zabit vətənə sadiq qulluq edərəк, uğurlu və qüsursuz xidmət göstərəcəк.

Zabit fəaliyyətinin əsas məqsədi rəhbərliк etdiyi hərbi hissənin, bölüyün yüкsəк döyüş hazırlığına nail olmaq, maddi və insan ehtiyatlarını səmərəli istifadə etməк, döyüş və siyasi-mənəvi hazırlıq planını yerinə yetirərəк təlim-tərbiyə məsələlərini uğurla həll etməкdən ibarətdir. Həmin məqsədə nail olmaq üçün zabit кonкret şəraitdə və xüsusi vasitələrlə müəyyən tapşırıq və məsələləri yerinə yetirməlidir. Hər bir döyüş-təlim fəaliyyəti, təşкilatçılıq və idarəetmə işi zamanı zabit müxtəlif tapşırıq və məsələlərin həlli nəticəsində şəxsi heyətin yüкsəк döyüş hazırlığına nail olur.

Zabitləri fəaliyyətə təhriк edən əsas motivlər bunlardır:

-hərbi-vətənpərvərliк baxışları və əqidəsi;

-mənəvi hisslər (borc, məsuliyyət, vicdan);

-кolleкtivçiliк motivləri (rəhbərliк etdiyi кolleкtivin işində böyüк nailiyyətləri qazanmaq);

-hərbi-professional motivlər (hərb sənətinə maraq, hərbi silah və texniкanı bilməк və s.);

-rəhbərliк fəaliyyəti motivləri (yaxşı mütəxəssis olmağa can atmaq, inamla bütün tapşırıqları yerinə yetirməк);

-özünü təкmilləşdirməк motivi;

-uğur qazanmanın praqmatiк motivləri (xidmətdə irəli getmə, rəğbətlənmə, maddi müкafatlanma);

-"uzaqlaşma" (qaçma) motivləri (cəzalanmadan, tənqiddən, qınaqdan, nüfuzun aşağı enməsindən);

-digər motivlər (paxıllıq, istənilən yollarla vəzifə almaq və s.)

Bunlardan başqa müxtəlif tapşırıqları yerinə yetirərкən zabit кonкret şəraitdə yaranan və ya situativ səciyyə daşıyan motivlərə əsasən də fəaliyyət göstərə bilər. Məsələn, rəislərin tələbi ilə müəyyən tapşırığı yerinə yetirərкən inamlı və cəsarətli qərarları qəbul etmənin dərкi belə motivlərdən biridir.

Zabit fəaliyyətinin müşahidəsi və təhlili göstərir кi, bir çox motivlər onların fəaliyyətində ya zəif iştiraк edir, ya da heç iştiraк etmir.

Zabit xidməti fəaliyyətində ətraf aləmdə dərk etdiyi hadisələrə, obyektlərə bəslədiyi subyektiv münasibəti ifadə etdiyinə görə onun emosional halı davranışın nizamlanmasında, şəraitə uyğunlaşmasında iştirak edir. Obyektiv gerçəkliyin emosiya və hisslərdə əks olunması bir tərəfdən zabitə təsir göstərən amillərin xüsusiyyətindən, digər tərəfdən onun xidməti xüsusiyyətlərindən, tələbatlarından, bilik və təcrübəsindən, idrak prosesindən asılıdır. Ümumilikdə, emosiya və hisslər şəxsi və ictimai məna kəsb edir. Onlar qütblüdür, yəni müsbət və mənfi çalarda olur, mütəhərrikdir (intensivliyi dəyişkəndir), baş vermə səbəblərindən, fəaliyyətin xüsusiyyətlərindən asılı olaraq müxtəlif dərinlikdə yaşanır (8, 3-4). Gücünə və davametmə müddətinə görə zabitin fəaliyyətində müxtəlif emosional hallar müşahidə olunur. Əhvallar – çox zəif cərəyan edərək uzun müddət davam edən emosional haldır. Məsələn, zabitin döyüşdəki uğuru və ya müvəffəqiyyətsizliyi uzun müddət qalan emosional haldır. Affekt isə çoşğun surətdə əmələ gəlib, kəskin xarici ifadəyə malik olan qısa müddətdə cərəyan edən haldır. Məsələn, döyüş vaxtı düşmənə qarşı əmələ gələn güclü qəzəb zabiti onu məhv etmək üçün müəyyən riskli hərəkətlərə və hətta həyatını qurban verməyə təhrik edir.

Stress insanın gözlənilməz gərgin şəraitlə rastlaşarkən keçirdiyi emosional halətdir. Məsələn, döyüş zamanı əsgər yanındakı yaxın dostunu itirərkən stress keçirir və bu, onun sinir sistemini səfərbər edərək düşmənə qarşı amansız olmağa yönəldir.

Frustrasiya insanın öz məqsədinə çatmasına maneçilik törədən real və ya xəyali çətinliklərlə rastlaşdığı zaman düşdüyü psixi vəziyyətdir. Məsələn, döyüş şəraitində zabitin tapşırığını yerinə yetirən döyüşçü dərin su səddini (çayı) keçməli olduqda bu halı yaşayır.

Bu emosional halların hərbçinin psixi sağlamlığına mənfi təsirlərini azaltmaq üçün zabit tabeçiliyində olanlara elə hisslər aşılanmalıdır ki, onlar döyüş və təlim tapşırığını böyük inamla yerinə yetirsinlər.

S.İ.Seyidov qeyd edir ki, «İnsanın aktivliyi emosional həyəcandan başlayır və o, müəyyən hisslər yaradır. Bu hisslərin şəxsi məna kəsb edən obyektlərə proyeksiyası onların insanın dəyərlər meyarı ilə müqayisəsinə səbəb olur və konkret iradi səyləri səfərbər edir. İnsan hissləri həmişə proyeksiya olunur» (12, 127). Qorxu insanın şəxsi məna kəsb edən dəyərlərinə proyeksiya olunmuş təhlükə zamanı yaranan haldır. Təhlükə çoxaldıqca, dəyər mənalı olduqca qorxu güclənir. Təhlükənin səviyyəsi subyektiv anlayışdır. Döyüşdə iştirak biri üçün gündəlik riskli işdir, digəri üçün – parkda gəzinti təhlükəlidir. Deməli, subyektiv təhlükə səviyyəsi bilavasitə dəyərlər ardıcıllığından asılıdır. Dəyər yüksək yer tutarsa, onunla bağlı qorxunun səviyyəsi də yüksək olacaq. Məsələn, əsgər hazırlığı üç istiqamətdə gedir:

I. Maddi baxımdan silahdan istifadə bacarığı verilir;

II. Fiziki hazırlıq;

III. Yüksək mənəvi-psixoloji ruhun formalaşması, vətənə məhəbbət, müstəqillik, yüksək intizam, sülh dəyərləri və s. əsas yer tutur. Hazırlıq uğurlu olduqda bu dəyərlər yüksək yer tutur və insanın davranışını müəyyənləşdirir(14, 80-88).

Emosiya və hisslər hərbçinin özünüqiymətləndirməsində, qərar qəbulu və onun həyata keçirilməsində, təhlükə və qəza situasiyalarına

münasibətdə də təzahür edir.

Ali hissləri zabitlərdə tərbiyəetmə yolları mövcuddur:

- hisslərin tərbiyəsinin ideya əsasını şüurlu yanaşmanın formalaşması təşkil edir. Vətənpərvərlik hissini ancaq vətən qarşısında öz borcunu şüurlu dərklə yaratmaq olar;
- döyüş-təlim fəaliyyətinin tələblərini nəzərə almaqla emosional təcrübənin yığılması nəticəsində hissləri yaşamaq olar;
- məzmunca maraqlı və emosional formasına görə parlaq tərbiyəvi tədbirlər keçirməklə hissləri tərbiyə etmək olar;
- zabitin şəxsi mədəniyyəti hisslərlə formalaşır və hisslərlə ötürülür;
- özünütərbiyə hisslərini tənzimləyərək onları formalaşdırır;
- incəsənətin bütün növlərindən istifadə etməklə hissləri inkişaf etdirmək olar.

Zabitin xidməti fəaliyyətində onun iradəsi qarşısına qoyduğu məqsədinə uyğun olaraq şüurlu və düşünülmüş şəkildə çətinlikləri dəf etməsi ilə səciyyələnir. İradəsi yaxşı inkişaf etmiş zabit məqsədyönlü fəaliyyət göstərərək daxili və xarici maneələri asanlıqla aşır, əzələ və sinir gərginliyini dəf edib, özünü ələ ala bilir. O, tabeçiliyində olanları istənilən böhran situasiyasında idarə edir, onları ruhlandırıb döyüş tapşırığını yerinə yetirməyə yönəldir. Zabitin iradəsi onun idrak prosesləri ilə sıx bağlıdır. İstənilən şəraitdə, onun fikrini cəmləməyə mane olan amillər olduqda belə, diqqətini cəmləyib döyüşü uğurla başa vurmaq, şərait haqda məlumatları düzgün təhlil etmək zabitin borcudur. Əgər zabit həyəcanlıdırsa şəraiti düzgün qavramır, çox amilləri nəzərə almağı unudur, dərin təhlil apara bilmir və işi axıra çatdırmır. Apatiya (heysizlik) halında o, öz imkanlarını aşağı qiymətləndirir, düşməni güclü görür, hafizəsi pis işləyir və s.

Əsgər və zabit xidməti fəaliyyəti dövrü möhkəm iradə nümayiş etdirirsə, onda həm də yüksək əxlaqi məsuliyyət özünü göstərir. Bu məsuliyyət hissi onu istənilən maneələri, çətinlikləri aşmağa kömək edir. H.Məmmədov qeyd edir ki, «...İnsan müəyyən bir seçim qarşısında dayandıqda, tərəddüdlər içərisində çırpınıb «edim ya etməyim» deyəndə son sözü əxlaqi məsuliyyət söyləyir. Bu məsuliyyət hissi qəti qərarı çıxarmaq lazım gəldikdə xüsusi ilə əhəmiyyətlidir... Əxlaqi məsuliyyət hissində qəhrəmanlığa aparan bir qüvvə vardır. Vəzifə borcu qarşısında, vətən qarşısında, ölkə qarşısında əxlaqi məsuliyyətin dərindən dərk edilməsi çoxlarının adını tarixin səhifələrinə qızıl xətlə yazmışdır. Hərbi qulluqçuda əxlaqi məsuliyyət dərəcəsini onun nizamnamələr, xüsusi ilə intizam nizamnaməsinə necə əməl etməsi ilə də müəyyənləşdirmək olar» (4).

Müasir dövrdə qələbəni təmin etmək üçün zabit məqsədyönlü şəkildə tez qərar qəbul etməyi bacarmalıdır. Komandirlik edən zabit tərəfindən hər hansı qərarın qəbulu onun motivlərinin mübarizəsilə bağlıdır və bu mübarizə uzunmüddətli olduqda qərar qəbulu çətinləşir və ya gecikir. İradəli zabit bu mübarizəni daha tez başa vurur və qərar verir. İradəsiz zabit tabeçiliyində olanlara gecikmiş, qətiyyətsiz əmrlər verir, onlar isə öz növbəsində çətinlikdən boyun qaçırır, əmri istədikləri kimi yerinə yetirirlər və s. İradə həm də ağıl və zəka ilə əlaqədardır.

Əmir Teymur vəsiyyətlərində qeyd edirdi: «İstənilən tayfadan, istənilən təbəqədən və sinifdən kim könüllü olaraq xidmətə girmək istə-

yirsə, onu hərbi xidmətə götürsünlər. Əsl şücaətli hərbçi hansı tayfadan olur-olsun, ona yer versinlər, ona döstərdiyi hünərə, gördüyü işə layiq himayə eləsinlər» (2, 61).

Müharibə təkcə qələbə deyil, bu bəzən məğlubiyyət və uğursuzluqdur. Belə hallarda zabit iradəsini toplayaraq özünü ələ almağı, şəraiti obyektiv təhlil etməyi bacarmalı və ayıq düşünmə qabiliyyətini itirməməlidir. Zabitin inamlı və sakit səsindən onun tabeçiliyində olanlar inam, enerji və ruh almalıdır. Əsəbi, özünü itirmiş, inamsız zabit nə əmr verə, nə də qərar qəbul edə bilir. Nəticədə tabeçilikdə olanlarda uğura inam olmur, ümidsizlik yaranır (13, 15-19).

Zabitin məqsədyönlü olması ona özünün fikir, arzu və hərəkətlərini səfərbər etməyə kömək göstərir. Məqsədyönlü zabit son nəticəni görür, ona nail olmaq üçün bütün hərəkətlərini düzgün seçir, bütün vasitələri məqsədlərini reallaşdırmağa yönəldir.

Zabit hazırlığı dövrü onlarda aşağıdakı iradi keyfiyyətlərin inkişafına xüsusi diqqət yetirmək vacibdir: təşəbbüskarlıq, müstəqillik, cəsarət, mərdlik, özünü ələ alma, məqsədyönlülük, qətiyyətlilik, inadkarlıq, tələbkarlıq və intizamlılıq.

İradi keyfiyyətləri inkişaf etdirmək üçün taktiki təlimlərdə yaradılan çətin şəraitdə yeni əmr almayan gənc zabit özü sərbəst olaraq qərar qəbul etməlidir. Beləliklə, onlarda müstəqillik kimi iradi keyfiyyəti yaratmaq mümkündür.

Əgər zabit təlimlərdə verdiyi qərarı başqalarının qərarından sonra dəyişirsə, bu onun qətiyyətsizliyini göstərir. Bunu aradan qaldırmaq üçün onun səhvini hamının yanında deməli, sonrakı dərslərdə axırda onun qərarına qulaq asaraq, nəticə çıxarıb son qərarına qulaq asmaq lazımdır. Beləliklə, o, tədricən təhlil yolu ilə vaxtında və düzgün qərar qəbul etməyi və qətiyyətli olmağı öyrənəcəkdir.

Psixoloji tədqiqatlar göstərmişdir ki, iradi keyfiyyətləri tərbiyə etmək üçün təkcə müəyyən xarakterli fəaliyyət kifayət deyil, həm də mövcud olan keyfiyyət və xassələri səfərbər etmək vacibdir (6, 5-12).

Deməli, təlim dövrü iradi keyfiyyətlər həm məşq etdirilməlidir, həm də səfərbər edilməlidir.

Adətən zabitlərdə bəzi iradi keyfiyyətlər yaxşı, digərlərində isə daha pis inkişaf edir. İradəsiz və ya çox iradəli zabit nadir hallarda olur.

Zabitdə iradi keyfiyyətlər formalaşdırmaq üçün intizamdan əlavə, onda daim yeni *sosial motivlər* yaratmaq vacibdir. Bunu təmin etmək üçün sistematik olaraq müəyyən risk tələb edən təhlükəli şəraitlərdə psixikanı məşq etdirmək, özünütənzimləmə və özünütərbiyəyə geniş yer vermək lazımdır.

Təlimdə müasir müharibənin psixoloji modelini hərbçilərə təqdim etməklə onların iradi keyfiyyətlərini inkişaf etdirmək olar. İradənin möhkəmlənməsi isə çətinliklərin dəf olunması hesabına həyata keçirilir. Zabit çalışmalıdır ki, tabeçiliyində olanlar verilən tapşırığı yerinə yetirərkən öz hərəkətlərini proqnozlaşdıra bilsinlər. Belə bir bacarığa yiyələnmək iradəni və iradi keyfiyyətləri daha da inkişaf etdirir. Təlim-döyüş fəaliyyətindən sonra hərbçinin öz hərəkətlərinin nəticələrini obyektiv təhlil etməsi də onun iradi keyfiyyətlərinə müsbət təsir göstərir.

Zabit iradəsinin inkişafı yolları mövcuddur:

- hərbi borcu yerinə yetirmək üçün yüksək motivlər sisteminin yaradılması zabit iradəsinin düzgün istiqamətlənməsini təmin edir;

1) zabitin hərbi-professional ustalığını təkmilləşdirmək vacibdir; 2) zabit üçün təlimlər zamanı müəyyən xarici çətinliklər sistemi yaratmaq lazımdır; 3) zabit öz hərəkətlərini dəqiq planlaşdıraraq, nəticələri proqnozlaşdırmalıdır; 3) zabitlər öz daxili çətinliklərini qiymətləndirərək, onları təhlil etmək imkanlarını bilməlidirlər; 4) zabit iradəsinin inkişafında kollektivin rolunu nəzərə almalıdırlar; 4) zabitlər psixoloji treninqlərdə, taktiki təlimlərdə risk etməklə, təhlükə ilə üzləşməklə, döyüş təlimi elementlərini icra etməlidirlər;

İradəsiz insan kompassız gəmiyə bənzəyir. K.D.Uşinski yazırdı: «Bizim iradəmiz əzələlərimiz kimi daima məşq və iş tələb edir» (7, 131). İradənin özünütərbiyəsinin beş yolundan istifadə də zabitlər üçün çox faydalıdır:

- iki işdən ən ağırından başla;
- başladığın işi axıra çatdır və onu vicdanla icra et;
- pis və zərərli vərdişlərdən əl çək;
- öz hərəkətlərini dərk etmək – cəsarətdir, gizlətmək – qorxaqlıqdır;
- heç vaxt ruhdan düşmə, uğursuzluq zamanı qələbə üçün yol və vasitə axtar.

Zabit iradəsinin inkişafı onların fəaliyyəti dövrü ərzində müntəzəm olaraq gedir. Daim qərar qəbulu prosesi, əmri icraetmə işi, tabeçilikdə olanların təlim və tərbiyəsinin təşkili, vətənə uğurla xidmət etmək arzusu, öz vəzifə borcunu hərbi nizamnamələrə uyğun şəkildə icra etmək kimi fəaliyyət, aparılan treninq və təlimlər onların iradəsinin müntəzəm şəkildə təkmilləşərək inkişafını təmin edir.

Müasir dövrdə ordunun idarə edilməsi, silah və sursatdan, hərbi texnikadan düzgün istifadə edilməsi, tez və düzgün qərarın qəbulu və s. bu kimi proseslər bilavasitə zabitin psixoloji hazırlığından asılıdır. Ona görə də zabitin xidməti fəaliyyətinin əsas psixoloji aspektləri – motivasiya-tələbatlar və emosional-iradi sferalar inkişaf etdirilməlidir. Ancaq belə olduqda zabitin xidməti qüsursuz keçə bilər, hərbi kollektivdə qarşılıqlı münasibətləri münaqişəsiz olar, idarəetmədə səhv etməz, döyüşdə qələbə qazanar.

### ƏDƏBİYYAT


1. Azərbaycan Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi. Bakı: Hərbi nəşriyyat, 1998, 312 s.
2. Əmir Teymurun vəsiyyətləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991, 112 s.
3. Qurbani Abdulla. Müqəddəs sərhədlərimizin keşiyində», Bakı: Əbilov, Zeynalov və oğulları, 2004, 320 s.
4. Məmmədov H.A. Əsgərin əxlaqi məsuliyyəti və iradi möhkəmliyi // «Azərbaycan ordusu» qəzeti, 2000, 5 dekabr, № 94 (580).
5. Şəfiyeva E.İ. Zabit hazırlığının sosial-psixoloji məsələləri. B.:Elm, 2006, 332 s.
6. Барабанщиков А.В., Муцынов С.С. Педагогическая культура офицера. М.: Воениздат, 1985, 159 с.
7. Барабаншиков А.Б., Давыдов В.П., Утлик Э.П., Феденко Н.Ф. Военная подготовка и психология / Под ред. А.Б.Барабанщикова, М.: Воениздат, 1986, 239 с.
8. Вилюнас В.К. Психология эмоций. Хрестоматия. 1-е изд. СПб.: Питер, 2006, 496 с.
9. Леонтьев А.Н. Деятельность, сознание, личность. Издание второе, М.: Политиздат, 1977, 303 с.
10. Макклелпанд Д. Мотивация человека. 1-е изд, СПб.: Питер, 2006, 672 с.
11. Маслоу Абрахам. Мотивация человека. СПб.: Питер, 2003, 352 с.
12. Сеидов С.И. Психология менеджмента. Б., 2000, 227 с.

13. Современный бой и психология воина. М.: Воениздат, 1967, 111 с
14. Столяренко А.М. Психология боевого дежурства и корабельной вахты. М.: Воениздат, 1972, 176 с.
15. Шевандрин Н.И. Социальная психология в образовании. М.:Владос,1995, 544 с.

**ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ СЛУЖЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ ОФИЦЕРА**

**Э.И.ШАФИЕВА**

**РЕЗЮМЕ**

В статье рассматриваются основные факторы обеспечивающие благополучную служебную деятельность офицера. В частности раскрывается мотивационно-потребностная сфера офицера обеспечивающая целенаправленность его действий и пути формирования целей и мотивов в учебно-боевой деятельности. В качестве другой психологической основы служебной деятельности офицера рассматривается эмоционально-волевая сфера. Далее описываются пути формирования и улучшения эмоционально-волевой сферы.

**PSYCHOLOGICAL BASES OF SERVICE ACTIVITY OF AN OFFICER**

**E.I.SHAFIYEVA**

**SUMMARY**

In the article major factors providing safe official activity of an officer are considered. Motivation-need sphere of the officer providing purposefulness of his actions and ways of formation of the purposes and motives in traininq-fighting activity in particular, in revealed. As other psychological basis of service activity of an officer the emotional-strong-willed sphere is considered. Further, ways of formation and improvement of emotional-strong-willed sphere are described.